# Tolstoyun “Anna Karenina” romanında şəxsi maraqla ümumi rifahın birləşməsi



■ Valeriya Gennadiyevna Andreyeva
*Filologiya elmləri namizədi (N.A.Nekrasov adına Kostromski dövlət universiteti)*

Şəxsi maraq və ümumi rifahın ahəngdar şəkildə birləşməsi problemi L.N.Tolstoyu bütün həyatı boyu düşündürmüşdür - bu haqda yazıçının gündəliklərinin, qeyd dəftərlərinin, məktublarının, publisistikasının, amma ən əsası onun bədii əsərlərinin analizinə əsasən danışmaq olar. Məhz həmin mətnlərdə biz eqoizm nümunələrini, individuallığı və ayrı-ayrı qəhrəmanların təkcə öz maraqları xatirinə deyil, həm də ətrafdakıların kədər və sevinclərini bölüşərək yaşamaq bacarıqlarının şahidi oluruq. Lakin yazıçının bədii əsərlərini mənimsədikdə onların daxili vəhdətinin yaradıcılıq yüksəlişi ilə birbaşa bağlılığı və müəllifin düşüncəsinin, konsepsiyasının personajların mövqeyinin düzgün qiymətləndirilməsindən ibarət olması kimi digər çətinliklər meydana çıxır. Tolstoyun əsərlərində cəmiyyətə nüfuz edən şəxsiyyəti görmək üçün onun bu və ya digər əsərinin bədii dünyası ilə əlaqə yaratdığı daxili rabitənin xüsusiyyətini başa düşmək vacibdir.

Deməliyik ki, Tolstoy üçün rus xalqının həyatından kənarda ümumi rifah mövcud olmasa belə, əsərlərinə müxtəlif formalarda öz avtobioqrafik qəhrəmanlarını daxil etmişdir. N.Y.Berkovski yazırdı: “Kazaklar” şəxsiyyəti xalq, obyektiv dünya və milli tarix vasitəsilə zənginləşdirən müasir epos hesab edilən “Hərb və sülh”ü qabaqlayır”. “Anna Karenina” romanı həm də epik mahiyyətlə səciyyələnir, qəhrəmanın ümumi rifaha yaxınlığı ailə və xristianlıq ənənələri vasitəsilə baş tutur. Amma Levinin xalqın dünyasına yaxınlaşması məhz şəxsi maraq, qəlbinin rahatlığı sayəsində baş verir. “Zira, insan dünyanı əldə etməyə müvəffəq olsa da özünü məhv edə və ya ziyan vura bilər”. Qeyd etmək lazımdır ki, əsas qəhrəmanın daxilində bütün roman boyunca şeytani nəfslə mübarizə gedir, zülm və nifrətlə savaş yaşanır. Bu mübarizədə qalib gəlmək üçün qəhrəmana xalqla, kəndlilərlə ünsiyyət yardım edir. Bu nöqteyi-nəzərcə Konstantin Levinin romanın sonuncu abzasında nəzərə çatdırılan gələcək haqqında planlarının böyük əhəmiyyəti var.

Yada salaq ki, əsərin finalında qəhrəman Levinin “bəxş edəcəyi”, “şübhəsiz ki, xeyirxahlıqla dolu olan” gələcək həyatının “hər bir anı” haqqında danışır. Təsadüfi deyil ki, söhbət hər dəqiqədən gedir, - oxucu dərk edir ki, müəllif bizi ayıq-sayıq gücləri fasiləsiz mübarizənin mühümlüyünün təsdiqinə, daimi ziddiyyət haqqındakı düşüncələrə doğru aparır, amma o, zalım deyil:

“Ayıq olun, çünki rəqibiniz şeytan nərildəyən şir təki sizi parçalamağa hazır şəkildə gəzir. Ona qarşı hədsiz imanla müqavimət göstərin...” Bizim fikrimizcə, Levinin düşüncələrində “qadir olmaq” sözü təkcə “bacaram” felinin sinonimi deyil. Onun köməyi ilə Tolstoy şəxsiyyətin ətraf aləmə xeyirxah təsir edən gücünü və Tanrının iradəsinə ortaq olmasını önə çəkir.

Levindən fərqli olaraq Anna Karenina əsərin bədii zamanına nəzərən şeytanın hökmünə getdikcə daha çox tabe olur. Romanın mətnində biz dəfələrlə Annanın şeytana itaətinin şahidi oluruq. Vronski ilə görüşdən sonra o, Aleksey Kirilloviçlə münasibətlərinin irəliləməsi dövründə şeytanın daha da artan dəhşətli gücünə qarşı müqavimət göstərməli olur.

Beləliklə, ərini aldatmağa başlayan qəhrəman bunu necə asanlıqla bacardığına özü də heyrətlənir. “O, özünü gözəgörünməz yalan əlbisəsi içərisində hiss edirdi. Hansısa pünhan qüvvənin ona yardımçı olduğunu, himayə etdiyini duyurdu”, - deyə L.N.Tolstoy yazırdı. Aleksey Aleksandroviçin bağ evinə arvadının yanına gəlişi epizodunda isə Anna artıq mübarizə apara bilmir, heç buna cəhd də göstərmir: o, “özünün artıq yaxşı bələd olduğu yalan ruhunu hiss etdiyi üçün gecikmədən həmin ruha tabe oldu”. O, həmin ruhun ona pıçıldadığı sözlərlə danışır. Müəllif kimi oxucuda qəhrəmana acıyır, amma Kareninanın öz zəifliyinin təsdiqinə necə yaxınlaşmasını və zalımlıqla bərqərar olmuş dünyanın təsvirini görməlidir. Romanın yeddinci hissəsinin iki son cümləsi Annanın təbirincə onun yer üzərindəki son təsəvvürü olaraq təqdim edilir, bu səbəbdən də biz başa düşürük ki, “iztirabları, yalanları, əzabları və zalımlığı ifadə edən kitab” həyat haqqında, əsasən də Annanın həyatı haqqındadır, amma bu, əsla yazıçı və onun avtobioqrafik qəhrəmanı deyil.

Maraqlıdır ki, “Anna Karenina” romanının yazılma tarixi (1873-1877-ci illər - bu zaman Tolstoy 45-49 yaşlarında olub) yazıçının özü tərəfindən xüsusi olaraq yaş həddinə baxış nöqteyi-nəzərindən qiymətləndirilib. “İnsan özünü dünya kimi qeyri-individual şəkildə və fərd olaraq dərk edir”. Hər şey də elə bundan başlanır. İnsan ətraf aləmi az-çox dərk edə bilir, ya da mən yaş həddinə nəzərən qavrayıram. Və təkcə bir yaş həddi (40-50 il) hər iki düşüncəsini barışdıra bilər”, - deyə Tolstoy 1870-ci ildə yazırdı. Bizim üçün Tolstoyun bəlli dövrlərə xas yaş xüsusiyyətləri haqqında düşüncələrində ədalətli olub-olmaması mühüm deyil, mühüm olan yazıçının şəxsi və ümumi imkanların birləşməsi haqqındakı şərhləridir.

“Dolaşıqlığa” nəzər salaq. V.A.Koşelyov A.A.Fet haqqındakı kitabda yazır: “Fet üçün ədəbi ideal Tolstoyun “Anna Karenina”sındakı Konstantin Levindir”.

Buna baxmayaraq, qeyd etməliyik ki, Levin obrazı Tolstoy tərəfindən Afanasi Fetin kənd təsərrüfatı “eksperiment”i illərində yaranıb - məhz həmin zaman Tolstoy xüsusilə aktiv şəkildə, şəxsən, yazılı surətdə mülkədar Fetlə ünsiyyət saxlayır, məqalələrini oxuyur və sanki onun timsalında “canlı” Levini görürdü, tipik dvoryanlara bənzəməyən dvoryan, “bütöv şəkildə, parçalanmamış, bölünməmiş” varlıq.

Amma romanın oxucusu şərh edir ki, Konstantin Levinin təsviri bütövlükdə gizli, hətta qəhrəmanın özü tərəfindən də hiss edilməyən, şübhəli, analizə ehtiyac duyulan şəkildədir. Tolstoy oxucuya göstərir ki, Levini xristian dəyərləri qoruyur, amma romanda dini düşüncənin təsdiqi, onun mühümlüyünün dərk edilməsi üçün qəhrəman imana doğru şəxsi yolunu getməli olur.

Burda Qolenişevin rəssam Mixaylov haqqındakı sözlərini və onun yeni “liberallar” və “vəhşi” adamlar haqqındakı qənaətlərini xatırlamaq yerinə düşər: “...Amma indi xalis azadfikirlilərin hətta əxlaq, etiqad qaydaları, avtoritetlər haqqında eşitməyən yeni tipi meydana gəlib, bütün anlayışları təkzib edərək çoxalırlar, yəni vəhşi kimi”.

Oxucu başa düşür ki, Qolenişevin müəllif tərəfindən təəssüf və ironiya ilə qələmə alınan sözlərini olduğu kimi anlamaq olmasa da, Levinin romandakı mövqeyi haqqındakı təsəvvürlərin yaranmasında onların rolu olduqca mühümdür, axı o, Stivanın sözlərinə əsasən “vəhşi”dir (eynilə rəssam Mixaylov kimi). Qolenişev rəssamın savadsızlığından bəhs edir, oxucu isə ondan insan unikallığını, individuallığını yoxa çıxaran Oblonskinin, Vronskinin və şahzadənin təhsilli, mədəni olduğunu xatırlayır. Qolenişevin sözləri oxucunun baxışlarını yönləndirir, qəhrəmanların həyatını anlamaq üçün şərait yaradır, amma həmin fikirlər tərsinə anlaşılmalıdır.



Azad fikirli adlandırılan Mixaylov, əslində, əzablı axtarış yolu keçir və Allahın bəxş etdiyi həqiqəti, həyatın əbədi qanunlarını dərk edərək onları “Pilatın nəsihətləri” rəsm əsərində təsvir edir. Tolstoy oxucunu aktiv elmi inkişafın baş tutduğu çevriliş dövründə insanın Tanrının mövcudluğuna, onun həqiqətlərinə şübhə etməsinin təbii hal olması barədə düşüncələrə qərq edir. Amma yazıçı qeyd edir: məyusluqdan sonra çətinlik və əzablar zamanı yenidən əldə edilən inam, daha qiymətli və sarsılmaz olur, çünki şəxsi hisslər, şəxsi maraqlar əsasında yaranır. Konstantinin doğma qardaşı Nikolay Levin obrazı bizə romanın əsas qəhrəmanının gizli tərəflərini anlamaqda kömək edir. Təsadüfi deyil ki, romanın bədii həyatında personajın gah kölgə salması, gah aydınlanmasını hiss edən N.Y.Berkovski Nikolayı Konstantin Levinin “sirri” adlandırmışdır.

Tolstoy oxucuya Nikolayın həyatındakı təzadlar haqqında xəbər verərkən (o, əvvəllər mömin olmuş, sonralar isə gəzərgi həyata başlamışdır), Levinin həyatındakı çətinliklərlə gizli paralel aparır. Bundan başqa Nikolayın ölümündən əvvəl qanunsuz halda imana geri dönməsi (“onun budəfəki dönüşü eyni düşüncə ilə baş tutsa belə qanuni deyildi”) oxucunu Levinin romanda baş tutacaq qanuni dönüşünə kökləyir. Hiss olunur ki, Qolenişevin romanda bəhs etdiyi inkardan, məhv etməkdən Tolstoy özü də keçib. “Gəncliyimdən bəri hər şeyi əvvəlcədən analiz edir, bununla da məhv etməyə səbəb olurdum. Tez-tez qorxurdum, düşünürdüm ki, bütöv heç nəyim qalmayacaq, indi isə budur qocalıram, amma başqalarındakından daha çox bütöv və zərər dəyməmiş nəsnələrim qalıb” - deyə Lev Nikolayeviç 6 noyabr 1873-cü il tarixində gündəliyində qeyd edib.

“Anna Karenina” romanında şəxsiyyətin və xalqın birləşməsi problemi yeni şəkildə, dini mövqe əldə etdiyindən xüsusilə vacibdir. Konstantin Levin də Tanrını dərk etməklə bərabər həm də paralel olaraq xalqla eyni yolda addımlayır. Levinin ulduzlu gecədə keçirdiyi iztirabları xatırlayaq. Bu an ondan ötəri ailə anlayışı xalq həyatı idealından olduqca uzaqdır. Qəhrəman xalqa qarışmaq, onun içərisində itib-batmaq istəyir, amma ailə xoşbəxtliyi haqqındakı keçmiş arzularından vaz keçə bilmir. Levin üçün gələcək barədə düşünmək hələ ki, ailə haqqında düşünmək qədər (kəndlilərin arasında kəndli arvadı Kiti ilə birlikdə yaşamaq) mühüm deyil. Amma elə həmin düşüncələrdə də onun şəxsi və xalqın hətta milli tərəfdən məqsədlərini birləşdirmək arzusu görünür, çünki millilik Levin üçün kübar ziyafətlərdəki söhbətlərin xarakterindən deyil, rus insanının özünə, ölkəyə, torpağa, rus xalqının mənəvi dəyərlərinin məcmusuna münasibətindən asılıdır. “Levinin başlıca məqsədi onun torpağı, evi, bütün anlayışı ilə gerçəkləşdirməyi düşündüyü, sadəcə həyat deyil, həm də fəlsəfi məna kəsb edən “ailə xoşbəxtliyi”idir”.

Bu romanda biz qəhrəmanın nəhəng dünyaya doğru hərəkət etdiyini görürük, buna görə də “şəxsi-ümumi” antitezləri ilə qəhrəmanın inkişafı, dəyişiklikləri arasındakı əlaqəni qeyd etməliyik. Konstantin Levinin mərhələləri ədəbiyyatşünaslıqda başlıca olaraq zahiri dövrlər kimi nəzərdən keçirilir. Amma Levinin inkişaf dövrləri (uşaqlıq-yeniyetməlik-gənclik-qocalıq) və onların mənəvi variasiya ilə əlaqəli olan bu zaman kəsimi bizə qəhrəmanın fədakarlığını göstərir (yada salaq ki, Tolstoy ancaq uşaq yaşlarda qanuni əsası olan eqoizmi və individuallığı dəfələrlə qeyd edib). “Tolstoyun əsas marağı insandır... Onun nöqteyi-nəzərincə ədəbiyyat insanın dərk edilməsi ilə, onun üçün daha doğru həyat yolu axtarmaqla məşğuldur, bu səbəbdən də öz millətini təsvir edərkən o, həm də bütün insanlığı təsvir edir”, - deyə B.İ.Bursov yazırdı. L.N.Tolstoyun mənəvi qəhrəmanı geri çəkilə, səhv edə, ümidsiz vəziyyətə düşə bilər, amma onlar vicdan hissini itirməməlidirlər. N.A.Berdyayev yazıçının qənaətlərini nəzərdən keçirərkən hesab edir ki, “hamının xoşbəxt həyatı naminə o, şəxsiyyətini və şəxsi dəyərləri rədd edir”. Amma vicdanın etirafı və onu hər zaman hiss etmək şəxsiyyətin və şəxsi marağın ilk əlamətidir. Bayaq qeyd etdiyimiz kimi Levin tərəfindən əsası qoyulan xeyirxahlıq qanunu yolun sonu deyil, amma buna əmək sərf etməsinin göstəricisidir: “İnsanın mənəvi kamilliyə çatması üçün böyük səylərə ehtiyac olmadığını nəzərə aldıqda məlum olur ki, bunun üçün digər vasitələr də var, lakin onlar gözəl həyata doğru cəhdlərin zəifləməsinə səbəb olur”.

Romanın süjet xətlərini nəzərdən keçirərkən yadda saxlamaq lazımdır ki, qəhrəmanın tənhalığı, dünyadan təcrid edilməsi Tostoyun ən böyük faciələrindən biridir. Onun qəhrəmanı Konstantin Levin individuallığını qoruyub saxlayaraq özünü hər zaman böyük bir nəsnənin hissəsi, bəndi olaraq görür. Amma N.A.Berdyayevin qeyd etdiyi kimi burada daha çox rus insanının nöqsanlarını görmək doğru deyil: “Rus mənəvi şüurunun xəstəliyini ən başlıcası olaraq şəxsi mənəvi cavabdehliyinin və şəxsi mənəvi intizamın inkarında, vicdan hissinin zəif inkişafında, şəxsi xüsusiyyətlərin arasındakı mənəvi dəyərinin yoxluğunda görürəm”.

*Davamı səhifə 15-də*

*Əvvəli səhifə 14-də*

Tosltoyun qəhrəmanları isə əksinə dünyadakı yerlərini, (bu zaman hətta özlərini müstəqil fərd şəklində hiss etsələr də) əzabla axtarırlar. Onlar qarşılarına qoyduqları məqsəd uğrunda mübarizəyə can atırlar.

V.D.Dneprov deyir: “Andrey Bolkonskinin müxtəlif, zamanla bir-birini əvəz edən hissləri onun şəxsiyyətində cəmlənir. Həyatın dərinliklərində düşüncələrin axarını dəyişən dönüş baş verir”. Bunu Tolstoyun əsas qəhrəmanlarından biri, özünü daha geniş müstəvilərdə axtaran, amma Bolkonskidən fərqli olaraq məhz şəxsi və ümumi maraqların birləşməsi imkanlarını əldə etməyə müvəffəq olan Konstantin Levin haqqında da söyləyə bilərik. V.V.Kojinov Qərb və rus ədəbiyyatının fərqini qeyd edir: “Qərb ədəbiyyatında qarşımızda individ (insan, şəxs - X.N.) və xalq təqdim edilir, rus ədəbiyyatında isə şəxsiyyət və xalq... “İndivid” və “xalq” anlayışları hər şeydən əvvəl azadlıq, məhdudiyyət anlayışlarını özündə birləşdirir, individ və xalq bütünlüklə müstəqil anlayışlardır. Bununla belə, “şəxsiyyət” və “xalq”ın müstəqilliyi, məhdudiyyətləri deyil, onların özlərində ümumi dəyərləri qoruyub saxladıqları daxili dünyasıdır”. Belə düşünmək olar ki, Tolstoyun qarşısında üzləşdiyi çətinliklər səbəbindən ümumi daxili aləminin dərinliyinin tapılması problemi dayanır.

Levinin Kiti ilə evləndikdən sonra seçkilərdə iştirak etməməsi epizodu da nümunə olaraq nəzərə çatdırılır: “Amma Levin evləndikdən sonra çox dəyişilib. O, səbirli idi, baş verənlərin səbəbini anlamadıqda öz-özünə deyirdi ki, mən heç bir söz deyə bilmərəm... “

Levinin “hər şey”dən xəbəri varmı? “Hər şey” elə birbaşa mənada nəzərdə tutulur? Amma insan hər şeydən xəbərdar ola bilməz. “Hər şey” təkcə seçimlərə deyil, həm də şəxsi eqonun, böyük dünya ilə şəxsiyyətin birləşməsinə aiddir. Levinin romanın sonunda özünə qapanmasını düşünmək yanlış olardı. M.M.Dunayevin Levinin vəziyyəti ilə bağlı dedikləri Annanın həlak olmazdan əvvəlki vəziyyətinə daha çox uyğun gəlir: “Daxili vəziyyətinə əsasən onun özünün sevgi subyekti olduğunu nəzərə alsaq, onda xoşbəxtlik enerjisi mənbəyinin də hər şeydən əvvəl əziz insanın əzablarından deyil, mənəvi həyəcanlarından ibarət olduğunun şahidi olarıq.

Əlbəttə ki, Anna haqqında danışarkən romanın yeddinci hissəsini nəzərdən keçirib Karenina və Vronski arasında əvvəldən mövcud olan “xoşbəxtlik enerjisi”ni xatırlamaq yersizdir. Amma bu yerdə qeyd etmək istərdik ki, Levin üçün M.M.Dunayevin dəfələrlə təkrarladığı eqosentrizm xarakterik deyil. Levinin daxili böhranı - özünə daxili baxışın olması, özünü təqsirləndirməsi, qəhrəmanın ucalmasının əsasıdır. Y.V.Lebedev yazır: “Rus yazıçısı əmin idi ki, hər hansı həyat quruculuğunu özündən başlamaq lazımdır, ətrafından deyil... ancaq özünü azad edərək, Tanrının köməyi ilə təkmilləşərək faydalı dəyişikliklərə ümid etmək olar”.

Ot tayası üzərində düşüncələr Levinin seçkilər zamanı fikirləri ilə bağlıdır. Quberniya seçkiləri səhnəsində görürük ki, Levinin arzusu utopik deyil, model haqqında söhbət bunun təsdiqidir. Hətta ideal haqqında düşüncə parodiya kimi təqdim edilsə belə, L.N.Tolstoy zərurilik yolunun inkardan keçdiyini təsdiq edir: “Hər sahədə öndə gedən zəngin Kaşinski quberniyası o qədər güclənib ki, burada baş verən işlər bütün Rusiya üçün nümunə ola bilər”. Amma bu işləri kim idarə edəcək?

L.N.Tolstoyun fikrincə Sviyajski və ya Nevedovski heç nəyi dəyişə bilməzlər, çünki xalqın ruhunu duymurlar. Ot tayası üzərində keçirdiyi gecə onu əvəz edən işçilərin dalğınlığı zamanı qəhrəman xalqı görən Levin, seçkilərdə əsl izdihamla rastlaşır: “Bunların ardınca gonbul generalı əhatə edən mülkədarlardan ibarət izdiham tələsik şəkildə Levinə yaxınlaşırdı...”

L.N.Tolstoy seçkilərdə qalib gələcək, heç bir yenilik gətirməyəcək və xalqa başçılıq etməyəcək, əksinə mülkədarlar dəstəsinin həyatını yaxşılaşdıracaq Nevedovskinin fəal qüvvələrinin olmadığını qeyd edir: “Nevedovski zaldan çıxdığı zaman izdiham seçkiləri açıq elan edən qubernatorun ardınca getdikləri ilk gündə olduğu tək, bir zaman seçkidə qalibiyyət qazanmış Snetkovu izlədikləri kimi onu əhatə etdi və fərəhlə onun ardınca getdi”.

L.N.Tolstoy xalqla hakimiyyətin maraqlarının qarşılaşdırılmasının çətinliklərini görür. İnkişaf yolunda dayanır, axtarışa maneə törətmir, əksinə “yuxarılar”ın qərarını gözləyir. Hakimiyyət isə xalqın qeydinə qalmır, onunla bağlılıq duymur, özünəməxsus individual axtarışlar edir. Geniş masalı kübar qonaq otaqları timsalında, mediumların toplaşdığı salonlarda, çoxsaylı masaların arxasında yazıçı “ziyalı cəmiyyətin darısqal, havasız aləmə necə çevrildiyini” göstərir.

Lakin zadəganların ən yaxşıları xalqın dünyası qarşısında məsuliyyət hiss edirdi. Buna görə də Levinin ailə və həyat fəaliyyəti maraqlarının birləşdirilməsi barədəki arzusu heç də utopiya deyil. Tolstoy “Anna Karenina” romanında sübuta yetirməyə çalışır ki, insan həyatının dünyadakı, cəmiyyətdəki mərkəzi öz növbəsində xalqın maraqlarını dərk edən mənəvi artım üçün layiqli və davamlı əsas olmağa malik ailə həyatı olmalıdır.

Bizim fikrimizcə, Levinin romandakı iddiaları - həyatının genişləndirilməsi (xalq həyatına aidiyyatı olan horizontal əlaqələr sayəsində) və dərinliyi (vertikal əlaqələri sayəsində - irsi cavabdehliyin özünü təkmilləşdirməsi, dərki) ancaq qarşılıqlı bağlanmada xüsusi məna kəsb edir və yazıçıya romanın epik mahiyyətini təşkil etməkdə yardım edir.

**Mənbə: cyberleninka.ru**
**Rus dilindən tərcümə edən:**
**X.Nurgül**